# SÜSƏN SÜNBÜL







Süsən sünbül, ay balam, bitirmişəm,
Mən yarımı, ay gülüm, itirmişəm.
Ömrü başa, ay balam, yetirmişəm,
Aman Gülgəz, yarım hanı, gülüm hanı?

N ə q ə r a t:

O məh camalın, ay gözəl, ağ üzdə xalın,
Öldürdü məni, ay gözəl, yandırdı məni,
Nədir xəyalın!

Yar əlindən, ay balam, badə içdim,
Mətləbimə, ay gülüm, mən yetişdim.
Kəcavəsin, ay balam, bəzəmişdim,
Aman Gülgəz, balam hanı, gülüm hanı?

N ə q ə r a t:

O məh camalın, ay gözəl, ağ üzdə xalın,
Öldürdü məni, ay gözəl, yandırdı məni,
Nədir xəyalın!